# KİMYƏVİ REAKSİYALAR ZAMANI $\sigma$ (siqma) RABİTƏ SAYLARI DƏYİŞMƏSİNİN RİYAZİ İFADƏSİ

**M.M.Abbasov**
*pedaqoji elmlər doktoru*

**Z.S.Abbasov**
*dissertant*

**K.G. Tomayeva**
*126 saylı məktəbin kimya müəllimi*

Əvvəlki məqalələrimizdə kimyəvi birləşmələrdə $\sigma$ (siqma) rabitə sayları və kimyəvi reaksiyalar zamanı ümumi rabitə sayları dəyişməsi haqında məlumat vermişdik [1-4].

Kimyəvi reaksiyaların istilik effekti, entalpiyası, maddələri təşkil edən atomları birləşdirən rabitələrin tərtibi, doymuşluğu, enerjisi, molekulların fəza quruluşu və s. kimyəvi rabitələrin sayından və növündən birbaşa asılıdır. Kimyəvi birləşmələrin əmələ gəlməsində və maddələrin xassələrinin müəyyən olunmasında $\sigma$ (siqma) rabitələr çox mühüm rol oynayır.

Kimyəvi reaksiyalar zamanı qrafik formullardan istifadə etmədən $\sigma$ (siqma) rabitə sayları dəyişməsinin riyazi metodla hesablanması istiqamətində apardığımız tədqiqatlar müsbət nəticə verdi. Kimyəvi reaksiyalar zamanı ümumi rabitə sayları kimi $\sigma$ (siqma) rabitə sayları dəyişməsini də qrafik formullardan istifadə etmədən riyazi üsulla hesablamaq mümkün oldu. Bunun üçün ilk dəfə təqdim olunan və aşağıda göstərilən düsturu tətbiq etmək lazımdır.

$$\Delta A_{(\sigma)} = n + s^{|} - (n^{|} + s)$$

Burada, $\Delta A_{(\sigma)}$ - kimyəvi reaksiya zamanı $\sigma$ (siqma) rabitə sayları fərqi, $n$, $n^{/}$ - müvafiq olaraq reaksiyanın sol və sağ tərəfində əmsalların cəmi, S, $S^{/}$ - müvafiq olaraq sol və sağ tərəfdə olan tsiklik saydır.

Kimyəvi reaksiyalar zamanı $\sigma$ (siqma) rabitə sayları dəyişməsini qrafik formullardan istifadə etmədən riyazi metodla hesablamasını nəzərdən keçirək.

$$5C_6H_{12}O_6+24KMnO_4+36H_2SO_4 \rightarrow 30CO_2+12K_2SO_4+24MnSO_4+66H_2O$$

$$\Delta A_{(\sigma)} = n + S^{|} - (n^{|} + S) = 65 + 24 - (132 + 0) = 89 - 132 = -43$$

Göstərilən reaksiyada sol tərəfdə tsiklik say “0”-a, sağ tərəfdə isə “24”-ə bərabərdir. Manqan 2 - sulfatın hər molekulunda bir tsikl (qapalı) mövcuddur.

Hesablamanın “-43” ədədi qiymət alması reaksiyanın sol tərəfi ilə müqayisədə sağ tərəfdə $\sigma$ (siqma) rabitə saylarının həmin qiymət qədər azalmasını göstərir.

Hesablamanın dəqiqliyinə reaksiyanın qrafik formulunu yazmaqla əmin olmaq olar.



5·23+24·5+36·6=451 30·2+12·6+24·6+66·2=408

408-451=-43

Benzol və antrasen aromatik birləşmələrinin yanma reaksiyaları üzərində hesablama

$$2C_6H_6+15O_2 \rightarrow 12CO_2+6H_2O$$

$$\Delta A_{(\sigma)} = n + S^{|} - (n^{|} + S) = 17 + 0 - (18 + 2) = 17 - 20 = -3$$

Riyazi hesablama nəticəsinin “-3”-ə bərabər olması reaksiyanın sağ tərəfində $\sigma$ (siqma) rabitə saylarının üç vahid azaldığını göstərir.

Qrafik formulları tərtib etsək eyni nəticəni alarıq.



2·12+15=39 12·2+6·2=36 36-39= -3

$$2\ C_{14}H_{10} + 33O_2 \rightarrow 28\ CO_2 + 10\ H_2O$$

$$\Delta A_{(\sigma)} = n + S^{|} - (n^{|} + S) = 35 + 0 - (38 + 6) = 35 - 44 = -9$$

2  + 33 O=O → 28 O=C=O + 10 H-O-H

2·26+33·1=85 28·2+10·2=76 76-85= -9

Qeyri-üzvi birləşmələrin reaksiyaları zamanı $\sigma$ (siqma) rabitə sayları dəyişməsinin riyazi üsulla hesablanması aşağıda verilmişdir.

$$5PH_3+8KMnO_4+12H_2SO_4 \rightarrow 5H_3PO_4+4K_2SO_4+8MnSO_4+12H_2O$$

$$\Delta A_{(\sigma)} = n + S^{|} - (n^{|} + S) = 25 + 8 - (29 + 0) = 33 - 29 = 4$$

Hesablamanın müsbət "4" ədədi qiymət alması reaksiya zamanı $\sigma$ (siqma) rabitə saylarının dörd vahid artdığını göstərir. Qrafik formulları yazsaq hesablamanın dəqiqliyi öz təsdiqini tapar.





5·3+8·5+12·6=127 5·7+4·6+8·6+12·2=131 131-127=4

$$3Ca(OH)_2+2H_3PO_4 \rightarrow Ca_3(PO_4)_2+6H_2O$$

$$\Delta A_{(\sigma)} = n + S^{|} - (n^{|} + S) = 5 + 2 - (7 + 0) = 7 - 7 = 0$$

Riyazi hesablamanın nəticəsinin "0"-a bərabər olması reaksiyaya daxil

olan və alınan maddələrdə $\sigma$ (siqma) rabitə saylarının bərabər olduğunu (dəyişmədiyini) göstərir. Buna molekulların qrafik formullarını tərtib etməklə əmin olmaq olar.



3·4+2·7=26 14+6·2=26 26-26=0

**İstifadə edilmiş ədəbiyyat:**


1. Salahov M.S., Bağmanov B.T., Abbasov Z.S., "Kimyəvi birləşmələrdə rabitə saylarının riyazi ifadəsi", "Pedaqoji universitet xəbərləri", Bakı-№-2008, s. 12-17
2. Salahov M.S., Abbasov V.M., Bağmanov B.T., Abbasov Z.S., "Kimya məktəbdə" jurnalı, 1 (41) 2013, s. 27-31
3. Salahov M.S., Abbasov V.M., Bağmanov B.T., Abbasov Z.S., "Reaksiyalar zamanı kimyəvi rabitə sayları dəyişməsinin riyazi ifadəsi", "Kimya məktəbdə" jurnalı 4 (24) 2008, s. 34-40
4. Abbasov M.M., Abbasov Z.S., "Kimyəvi birləşmələrdə π (pi) rabitə saylarının riyazi ifadəsi".
5. "Reaksiya zamanı rabitə sayları dəyişməsinin riyazi hesablanma metodikası", "Kimya məktəbdə" jurnalı çapda

*М.М.Аббасов, З.С.Аббасов, К.Г.Томаева*

**Математическая выражения количества *σ* (сигма) связей изменения в ходе химической реакции**

## АННОТАЦИЯ

В статье впервые поставлена и решена проблема математического выражения количества *σ* (сигма) связей изменения в ходе химической реакции.

*M.M.Abbasov, Z.S.Abbasov, K.G.Tomaeva*

**Mathematical expressions amount σ (sigma) bonds change in a chemical reaction**

## ANNOTATION

The article first has set and resolved the problem of the mathematical expression quantity σ (sigma) bonds change in a chemical reaction.

**Açar sözlər:** siqma rabitə, qrafik formul, entalpiya, antrasen, tsiklik say.

**Ключевые слова:** сигма связь, графическая формула, энтальпия, антрацен, циклический.

**Keywords:** sigma bond, graphic formula, enthalpy, anthracene, cyclic.